

## Təzmin (İmadəddin Nəsimi)

*Dünya duracaq yer deyil, ey can, səfər eylə!*
*Aldanma anın alına, andan həzər eylə!*

*Tək-tək gəzib aləmləri dərviş misalı,*
*Kamilliyin üçün özünü dərbədər eylə!*

*Bica yerə cananını axtarma uzaqda,*
*Qəlb ayinəsindən içinə bir nəzər eylə!*

*Ruhani rahatlıq gətirən şükri kəlamın,*
*Nəfsin ilə qəlbin arasında çapər eylə!*

*Bu fani ömür güzgüsünü vur yerə sındır,*
*Bunca zamana bağlı saatdan güzər eylə!*

*Gər can ilə öz eşqinə yetmək dilər isən,*
*Boş ver bu cahanı, bu canı tərki-sər eylə!*

*Qaldır küləyi ahın ilə, hər yanı titrət,*
*Eşq uğruna hər cəngidə səy et, hünər eylə!*

*Mərdlik ilə meydanları ey fəth edən, aşiq,*
*İblis üzərində ölümünlə zəfər eylə!*

*Haqq söylədiyimdən məni də darə çəkirlər,*
*Get müjdəni eşq əhlinə, Rəxşan, xəbər eylə!*

Zaur Rəxşan